

# Məhəmməd BARKİNDO: “Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz”

## OPEC-in Baş katibi Prezident İlham Əliyevin təklifini və fəaliyyətini çox yüksək dəyərləndirdi

***Prezident İlham Əliyev 2015-ci ildə keçirilən Dünya İqtisadi Forumunda Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv ölkələrin və OPEC üzvü olmayan neft istehsalçılarının əməkdaşlığının gücləndirilməsi məqsədilə çağırış etmişdi. Məqsəd dünya bazarında neft ixracında üzləşilən problemlərin aradan qaldırılması idi.***

O zaman panel iclasında dövlətimizin başçısı bu barədə aparıcının sualına cavabında bildirmişdi: “Düşünürəm ki, OPEC üzvü olmayan böyük istehsalçılar və OPEC üzvləri arasında istehsalın azaldılması barədə razılıq, əlaqələndirmə olsa qarşılıqlı etibarı artırar. OPEC təkbaşına bu qərarı verə bilmədi. Bu qərar olmadıqda isə indiki vəziyyət alınır və neftin qiymətinin ən aşağı həddə enməsini gözləyirik. Hər gün ən aşağı hədd olduğunu düşünürük və daha sonra yeni neft qiymətini görürük. Sözün açığı, ölkənin büdcəsini tarazlamaq, investisiya üçün maliyyəyə malik olmaq kimi ehtiyaclardan başqa, bu, bir az da psixoloji cəhətdən yorucudur. Bu, təkcə neft və qaz sektorunda deyil. Şirkətlər və ölkələr arasındakı fərq də budur. Biz sosial infrastruktura, sənaye infrastrukturuna investisiya qoymalıyıq. Eyni zamanda, istehsal gücünü sabit saxlamaq üçün də neft və qaz sənayesinə investisiya qoymalıyıq. İndiki vəziyyət, əlbəttə, ürəkaçan deyil. Ancaq, eyni zamanda, bu, Azərbaycanda islahatlar üçün əlverişli məqamdır”.

Şübhəsiz ki, həmin vaxt belə bir təşəbbüsün irəli sürülməsi neft ixracatçıları arasında əlaqələrin yeni qaydada qurulmasına təkan verdi və builki Davos Forumunda OPEC-in baş katibi Məhəmməd Barkindo Prezident İlham Əliyevlə görüşündə həmin tarixi məqamı xatırladaraq “OPEC+” formatında əməkdaşlığın əsasının məhz Azərbaycan rəhbəri tərəfindən qoyulduğunu diqqətə çatdırdı. Bildirdi ki, cənab İlham Əliyevdən əvvəl belə bir təşəbbüslə heç kim çıxış etməyib. OPEC-in baş katibi daha sonra dedi: “Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Çünki Siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki biz hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü.

Biz ən pis vəziyyətin şahidi idik. Cənab Prezident, Sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq. Biz 2017-ci il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə ilə imzaladıq.

Tarixdə ilk dəfə idi bu, baş verirdi. Sizin rəhbərliyiniz, Sizin baxışınız sayəsində biz bunu etdik. Biz bunu heç vaxt unutmayacağıq, cənab Prezident. Bu, bizim üçün çox önəmlidir və Sizin də qeyd etdiyiniz kimi, ötən beş ildə biz Azərbaycanla çox sıx işləmişik və Azərbaycan qəbul edilmiş bütün qərarlara sadiq qalıb”.

Qeyd edək ki, dünya bazarında neftin qiymətinin ucuzlaşması fonunda OPEC-ə üzv 14 ölkə və Azərbaycan da daxil olmaqla kartel üzvü olmayan digər neft istehsalçıları qiymətdə sabitliyin yaranması üçün 2016-cı ildən etibarən neft hasilatını azaltmağa başlayıblar. Bu illər ərzində Azərbaycan “OPEC+” formatında əməkdaşlığın fəal iştirakçılarından olub və qəbul etdiyi öhdəlikləri yüksək səviyyədə yerinə yetirib.

Xatırladaq ki, keçən il dekabrın 6-da “OPEC+” üzrə gündəlik neft hasilatının daha 500 min barrel azaldılması barədə qərar qəbul edilib. Yeni “Əməkdaşlıq Bəyannaməsi”nə uyğun olaraq, Azərbaycanın öhdəliyi 27 min barrel müəyyənləşdirilib. Cari ilin yanvarından etibarən birinci rübün sonunadək Azərbaycan gündəlik neft hasilatını 769 min barrel həcmində saxlamaq öhdəliyi götürüb.

Prezident İlham Əliyev builki Davos Forumunda OPEC-in baş katibi Məhəmməd Barkindo ilə görüşündə sözügedən təşəbbüsünü dəstəklədiyə görə OPEC-in baş katibinə təşəkkürünü bildirdi. Qeyd etdi ki, təklifi nəzərə alındı və çox nadir tərəfdaşlıq formatı yaradıldı. Dövlətimizin başçısı daha sonra bu formatda verilən qərarları səmərəli şəkildə gerçəkləşdirən ikinci bir beynəlxalq təşkilat olmadığını vurğuladı.

Hazırda neft bazarında müəyyən sabitlik nəzərə çarpır. OPEC və qeyri-OPEC ölkələrinin yaratdığı “OPEC+” koalisiyasının birgə səyləri nəticəsində “qara qızıl”ın qiyməti 55-60 dollar/barrel ətrafında dəyişir. Bazarda tələb-təklif tarazlığı pozulan zaman isə Azərbaycanın da daxil olduğu “OPEC+” ölkələri tərəfindən buna dərhal reaksiya göstərilir.

Azərbaycan hazırda qlobal enerji bazarının mühüm aktorlarından biridir. Prezident İlham Əliyev isə qlobal iqtisadi vəziyyətə təsir göstərən amilləri dərindən təhlil edir və daha rəqabətli iqtisadiyyatın formalaşması üçün ideyalar verir. Məhz dövlətimizin başçısın qlobal enerji bazarı ilə bağlı uzaqgörən ideyaları dünyanın 14 nəhəng neft istehsalçısını bir araya toplayan OPEC, eləcə də digər neft hasilatçıları üçün də yol xəritəsi rolunu oynayır.

Yeri gəlmişkən, burada diqqətçəkən bir məqama da toxunmaq istərdik. Prezident İlham Əliyev Davosda OPEC-in baş katibi Məhəmməd Barkindo ilə görüşdə bildirib ki, Azərbaycan artıq özünü OPEC üzvü kimi göstərir. Əminəm ki, bu, belə də davam edəcək.

Məhz belə bir fikrin bariz ifadəsi dövlətimizin başçısının Rusiyanın “Rossiya-24” televiziya kanalına müsahibəsində də öz ifadəsini tapıb. Aparıcının “Yaxın Şərqdə müşahidə olunan gərginlik nəzərə alınmaqla bu il neftin qiymətinin hansı dinamikasını gözləmək olar?”–sualına cavabında Prezident İlham Əliyev bildirib ki, proqnoz vermək çətindir: “Düşünürəm ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir. Azərbaycana gəldikdə, bu il bizim büdcəmizdə neftin bir barrelinin qiyməti 55 dollar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də düşünürəm ki, əgər hər hansı forsmajor vəziyyət yaranmasa, qiymət 55-65 dollar diapazonunda qalacaq. Üstəlik, “OPEC+” formatı çox səmərəlidir və Azərbaycan bu formatın işində fəal iştirak edir. Biz öz üzərimizə götürdüyümüz öhdəliklərlə əlaqədar hasilatı azaldırıq və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də “OPEC+” çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır və bizim fikrimizcə, mahiyyət etibarilə, bu gün neftin qiymətinin ədalətli olduğunu müəyyənləşdirib”.

Sonda xatırladaq ki, OPEC-in növbəti toplantısının bu ilin martında keçirilməsi nəzərdə tutulmuşdu. Lakin xarici KİV-lərin məlumatına görə, neftin qiymətinin koronavirusun bazarda tələbata zərbə vuracağına dair narahatlıq fonunda ucuzlaşmasından sonra OPEC üzvləri gələn ay təcili iclas keçirməyi düşünür. Əlcəzairin energetika naziri Mohamed Arkab bununla bağlı yaxın günlərdə qərar veriləcəyini diqqətə çatdırıb.

Qeyd edək ki, Əlcəzair OPEC-ə sədrlik edir, bu, ona baş katib və digər üzvlərlə məsləhətləşdikdən sonra təcili iclas keçirmək hüququ verir.

Xatırladaq ki, OPEC-in baş katibi Məhəmməd Barkindo daha əvvəl martda Avstriyanın paytaxtı Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatının iclasının keçiriləcəyini deyib. O, beynəlxalq ticarətdəki bəzi mübahisələrin həll olunacağını gözlədiklərini, eləcə də cari ilin birinci və ikinci rübündə sabitliyə diqqəti yönəltməkdə davam edəcəklərini bildirib.

***“Xalq qəzeti”***